

**Xızı rayonu Xələnc kəndində yerləşən 19 cu əsrə aid olan Su dəyirmanı. Bu dəyirman Xələnc kəndində fəaliyyət göstərmiş 18 su dəyirmanından  biridir.**



**Xızı rayonu Xızı şəhərində yerləşən 19cu əsrə aid olan Gümbəzli hamam. Hamam Şərq memarlığı üslubunda tikilib, isti olması üçün yerdən capma və tağlı formada inşa edilib. Hamamı qızdırmaq üçün əvvəllər odun, kömür, sonralar isə mazutdan istifadə edilib.**



**Xızı rayonu Xələnc kəndində yerləşən 14 cü əsrə aid olan Ağ pir və qədim qəbiristanlıq.**



**Xızı rayonu Xızı şəhərində yerləşən 19cu əsrə aid Məscid. Məscid sovet dövründə məktəb və anbar kimi istifadə olunub.**



**Xızı rayonu Tıxlı kəndindən 5 km şimali şərqdə yerləşən Şeyx Heydər türbəsinin qalıqları və qədim qəbiristanlıq. Türbə Pirabad kəndinin xarabalıqlarından bir neçə yüz metr qərbdə təpə üzərində yerləşir. Türbənin tikintisində qaya daşları, bişmiş kərpic və əhəng məhlulundan istifadə edilmişdir. Türbənin günbəzi isə şirli keramika ilə üzlənmişdir. Qəbir daşlarının üzərində cox əhəmiyyətli işarələr, damğalar və naxışlar vardır.** **Xızı rayonu Tıxlı kəndindən 5 km şimali şərqdə yerləşən Şeyx Heydər türbəsinin qalıqları və qədim qəbiristanlıq. Türbə Pirabad kəndinin xarabalıqlarından bir neçə yüz metr qərbdə təpə üzərində yerləşir. Türbənin tikintisində qaya daşları, bişmiş kərpic və əhəng məhlulundan istifadə edilmişdir. Türbənin günbəzi isə şirli keramika ilə üzlənmişdir. Qəbir daşlarının üzərində cox əhəmiyyətli işarələr, damğalar və naxışlar vardır.** **Türbə və qəbirlərin bəziləri naməlum şəxslər tərəfindən dağıdılaraq qarət edilmişdir. Hal hazırda türbənin yenidən bərpasına ehtiyac var.**



**Xızı rayonu Xanəgah kəndində yerləşən, orta əsirlərə aid olan  Pir Əli Xanəgahı. Tikili şırvan memarlıq üslubunda, cay daşı, qaya daşı, mədən daşı və əhəng məhlulundan istifadə edilməklə inşa edilmişdir. Tikili məcsid, mədrəsə və digər yardımcı tikililərdən ibarət olmuşdur.**



**Xızı rayonu Şorabad qəsəbəsindən yerləşən, 19 cu əsrə aid olan Gümbəzli hamam. Tikili Şərq memarlığı üslubunda, yeri cildaş və əhəng məhlulundan istifadə olunmaqla inşa edilmişdir. Tikili sovet dönəmində sement məhlulu ilə suvanmışdır. Hal hazırda tikilinin vəziyyəti qənaətbəxşdir.**



**Xızı rayonu Şorabad qəsəbəsindən 2 km şimalda, 16- 17 ci əsrlərə aid olan  Şah Abbas ovdanı yerləşir. Ovdan dəvə karvanlarının su ilə təmin olunması üçün, Şah Abbas tərəfindən, Bakı Dərbənd arasında tikilmiş, 99 ovdandan biridir. Ovdan yağınlığında aparılmış ilkin tədqiqat zamanı ərazidən tapılan bişmiş kərpic, yerli cildaş və mədən daşlarının qalıqları, onu  göstərir ki, ərazidə karvansaray olmuşdur.**



**Xızı rayonu Ağdərə kəndindən 2 km  Cənubi şərqədə, Qozlucayın kənarında yerləşən, orta əsirlərə aid olan Ağ Abdal piri və qədim qəbiristanlıq. Türbə ilkin olaraq cay daşı, (yonma üsulu ilə kəsilmiş) mədən daşı və əhəng məhlulundan inşa edilmişdir. Yenidən bərpa zamanı isə (müasir mişar üsulu ilə kəsilmiş) mədən daşından və sement məhlulundan istifadə edilmişdir. Qəbir daşlarının və sənduqələr üzərində olan arnamentlər və naxışlar onu  göstərir ki, ərazidə Şirvan memarlıq üslubundan istifadə edilmişdir.**